**Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin nəzərinə!**

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2021-ci il 4 may tarixli 129 nömrəli qərarı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 13 aprel tarixli 138 nömrəli qərarına dəyişiklik edilmiş və Azərbaycan Respublikasının təhsil müəssisələrində normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan və sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin 2020\2021-ci tədris ilinin yaz semestri (yarımili) üçün təhsil haqqı xərclərinin dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi nəzərdə tutulmuşdur.

**Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələr 2020\2021-ci tədris ilinin yaz semstri (yarımili) üçün təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi ilə bağlı http://e-telebe.edu.az elektron portalına 19 may 2021-ci il tarixindən 7 iyun 2021-ci il tarixinədək müraciət etməlidirlər.**

**Qeyd 1**. Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələr:

1. Ünvanlı dövlət sosial yardımı alanlar;
2. Hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) və ya qanuni nümayəndələri aşağıdakı kateqoriyaların hər hansı birinə aid olanlar:

- I və II dərəcə əlilliyi olan şəxslər;
- işsiz kimi qeydiyyatda olanlar;
- yaşa görə əmək pensiyaçıları;
- yaşa görə sosial müavinət alanlar.

**Qeyd 2.** 2020/2021-ci tədris ilinin payız semestri (yarımili) üçün təhsil haqqı xərcləri dövlət tərəfindən ödənilməsi həyata keçirilən tələbələrinin 2020/2021-ci tədris ilinin yaz semestri (yarımili) üçün təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi ilə bağlı http://e-telebe.edu.az elektron portalına müraciət etmələri tələb olunmur.